№2

# Kağız diplom anlayışına son

Azərbaycan Respublikasının Mediananın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

## Layihə

***Azərbaycanda təhsil haqqında dövlət sənədlərinin verilməsi prosesində köklü dəyişikliklər nəzərdə tutulur. Belə ki, artıq təhsil haqqında dövlət sənədləri, diplomlar, attestatlar, sertifikatlar və onlara əlavələr yalnız elektron formatda veriləcək. Baş nazir Əli Əsədovun imzaladığı qərar təhsil sənədlərinin verilməsi prosesini tam rəqəmsal mühitə keçirməyi nəzərdə tutur. Bununla yanaşı, Nazirlər Kabinetinin 2010-cu il tarixli 82 nömrəli qərarı ləğv edilir və onun yerinə müasir rəqəmsallaşma və elektron hökumət prinsiplərinə uyğun yeni mexanizmlər tətbiq olunur.***



Yeni qaydalara əsasən ali, orta ixtisas, peşə və ümumi təhsil pillələri üzrə diplomlar, attestatlar, sertifikatlar və onlara əlavələr hüquqi qüvvəyə malik elektron sənədlər kimi formalaşdırılacaq. Təhsil sənədlərinin verilməsi prosesi tam şəkildə rəqəmsal mühitə keçirilir və bununla vətəndaş məmnunluğu, inzibati prosedurların sadələşdirilməsi və rəqəmsal idarəetmənin gücləndirilməsi təmin edilir. Yeni qaydaların əsas üstünlükləri arasında təhsil sənədlərinin TMİS üzərindən elektron formatda formalaşdırılması, sənədlərdəki məlumatların EHİS vasitəsilə təhlükəsiz şəkildə təqdim olunması və əldə olunması, diplom və attestatlara ştrix-kod əlavə olunması, onların həqiqiliyinin onlayn yoxlanılması, məzunların şəxsi elektron kabinetlərindən sənədlərini istənilən vaxt əldə edə, paylaşa və zərurət olduqda çap edə bilməsi, həmçinin təhsil sənədlərinin dublikatlarının verilməsi, ləğvi və yenidən tərtibinin vahid, şəffaf və tam rəqəmsal prosedurlar əsasında həyata keçirilməsi nəzərdə tutulur.

Qaydalarda bakalavriat, magistratura və rezidentura səviyyələri, eləcə də orta ixtisas, peşə və ümumi təhsil pillələri üzrə dövlət sənədlərinin məzmunu, verilmə müddətləri, verilməsindən imtina halları və hüquqi nəticələri sistemli şəkildə tənzimlənir.

■ **Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov bildirib ki, ali təhsil pilləsinin bakalavriat, magistratura və rezidentura səviyyələri üzrə diplomlar məzunlardan on iş günü ərzində hazırlanacaq.**

O əlavə edib ki, yeni qaydalara əsasən diplomlar yalnız elektron formada təqdim olunacaq və kağız daşıyıcıda verilməyəcək. Vətəndaş istədiyi və ya ehtiyac duyduğu halda şəxsi kabinetindən diplomu çap edə biləcək və çap edilmiş sənəd notarial qaydada təsdiqlənə biləcək.

O, həmçinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə sənədlərin təqdim olunmasına da aydınlıq gətirib və deyib ki, təqdim edilən bütün sənədlər sistem üzərindən formalaşacaq, dövlət qurumları bu elektron sistemə qoşulacaq. Eyni zamanda, həmin sənədlərin digər dövlət qurumlarına ötürülməsi də təmin ediləcək. Vətəndaş özü ilə yanaşı, valideynləri və qanuni qəyyumları da bu sistemə çıxış əldə edəcəklər. Əvvəl verilmiş diplomlar itdikdə isə dublikat yalnız elektron qaydada təqdim olunacaq. Əvvəllər verilmiş diplomlara gəlincə, onların itirilməsi halında dublikatın əldə edilməsi yalnız elektron qaydada mümkün olacaq. Yeni əvvəllər diplom almış şəxs sənədini itirdikdə artıq diplomun dublikatı elektron formatda təqdim olunacaq. O vurğulayıb ki, elektron qaydada verilən diplomlar elektron qaydada yoxlanıla bilər və bununla diplomların saxtalaşdırılması hallarının tam qarşısını almaq mümkün olacaq.

■ **Təhsil eksperti Ramin Nurəliyev hesab edir ki, bu qərar tələbələr üçün ciddi rahatlıq yaradacaq. Onun sözlərinə görə, Nazirlər Kabinetinin qərarına əsasən ali, orta ixtisas, peşə və ümumi təhsil pillələri üzrə diplomlar, attestatlar, sertifikatlar və onlara əlavələr artıq hüquqi qüvvəyə malik elektron sənədlər kimi formalaşdırılacaq.** Ekspert əlavə edir ki, bu qərar dünya təcrübəsinə uyğun olmaqla yanaşı, tələbələr üçün ciddi rahatlıq yaradacaq. İnkişaf etmiş ölkələrdə elektron diplomlar artıq uzun müddətdir tətbiq olunur və Türkiyədə də bunun real nümunələrini görmək mümkündür. Bu sistemin Azərbaycanda tətbiqi tələbələr üçün böyük üstünlükdür. Ramin Nurəliyevin fikrincə, elektron attestatların tətbiqi, xüsusilə xaricdə təhsil almaq istəyən gənclər üçün vaxt itkisini aradan qaldıracaq. O bildirib ki, indiyədək bəzi regionlarda attestatların verilməsində gecikmələr müşahidə olunurdu. Yeni qərarla bu problem aradan qalxacaq və məzunlar maksimum on gün ərzində elektron sənədlərini əldə edə biləcəklər. Eyni problem ali təhsil müəssisələrini bitirən gənclər üçün də aktual idi. Bu vaxta qədər diplomların verilməsi aylarla, bəzi hallarda isə hərbi xidmət səbəbindən daha uzun çəkirdi. Elektron diplomların tətbiqi xüsusilə xaricdə magistratura təhsili almaq istəyən gənclər üçün yeni imkanlar açacaq.

Ekspert onu da deyib ki, qərar yalnız məzunlara deyil, təhsilini yarımçıq dayandıran və ya müvəqqəti fasilə verən şəxslərə də aiddir. Belə şəxslər artıq arayış almaq üçün universitetlərdə növbələrdə dayanmayacaq, sənədlərini elektron formada əldə edərək istənilən quruma təqdim edə biləcəklər. Məzunlar, artıq aylarla diplom gözləmədən elektron sənəd ilə işə müraciət edə biləcəklər və bu da

> *Bu qərar tələbələr üçün ciddi rahatlıq yaradacaq*

> *Azərbaycan bununla birbaşa rəqəmsal sənədə hüquqi qüvvə verərək, kağız daşıyıcını tam olaraq dövriyyədən çıxaran ilk ölkələr sırasına daxil olur*

onların iş həyatına daha tez inteqrasiya olunmasına şərait yaradacaq.

Onun sözlərinə görə, cəmiyyətdə bu qərarla bağlı yanlış fikirlər də yayılıb: "Bəzi şəxslər bunu fəaliyyəti dayandırılmış ali təhsil müəssisələrində oxuyanların diplom əldə etməsi kimi şərh edir, lakin bu, tamamilə yanlışdır. Bağlanmış ali təhsil müəssisələrində oxuyan şəxslərə diplom verilməsi nəzərdə tutulmur. Yalnız həmin şəxsin müəyyən müddət təhsil aldığını təsdiq edən arayış təqdim oluna bilər və bu arayış diplomu əvəz etmir".

Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz isə vurğulayıb ki, belə bir qərarın qəbulu Prezidentin 2020-ci ildə "Təhsil haqqında" qanuna dəyişikliyin təsdiqi haqqında fərmanında nəzərdə tutulmuşdu. Uzun müddət idi ki, bu sənədin qəbulu ləngiyirdi.

O, əlavə edib ki, bu yanaşma dünyada çox az sayda ölkənin tətbiq etdiyi, bir çox inkişaf etmiş dövlətlərin isə hələ də keçmədiyi qabaqcıl və cəsarətli modeldir. Əksər ölkələrdə bu gün də əsas sənəd kağız diplom hesab olunur və rəqəmsal versiya isə sadəcə qeydiyyat və arxiv funksiyası daşıyır. Azərbaycan isə bununla da birbaşa rəqəmsal sənədə hüquqi qüvvə verərək, kağız daşıyıcını tam olaraq dövriyyədən çıxaran ilk ölkələr sırasına daxil olur.

Ekspert deyir ki, yeni qaydalara əsasən, təhsil sənədləri təhsil müəssisələri tərəfindən məzunların datasının TMİS informasiya sisteminə daxil edilməsi əsasında elektron formada yaradılacaq: "Diplom və attestatlar həm də myGov şəxsi kabinetində yerləşdiriləcək və hüquqi qüvvəyə malik olacaq. Sənədlərin həqiqiliyi onlayn yoxlama və QR-kod mexanizmləri ilə təsdiqlənəcək. Xüsusilə vacib məqam ondan ibarətdir ki, bu modeldə universitetlərin və təhsil müəssisələrinin rolu əhəmiyyətli dərəcədə artır. Artıq ali məktəblər diplom blankı dalınca düşməyəcək, mərkəzləşdirilmiş kağız asılılığından çıxacaq və məzun məlumatlarını birbaşa dövlət sisteminə daxil edəcək. Diplomların maksimum on iş günü ərzində hazırlanması təmin olunacaq ki, bu da universiteti bitirən məzunların elə məzun günündə diplomlarını ala bilməsi deməkdir.

Bu isə diplomların zamanında verilməsilə bağlı universitetlərin məsuliyyətini artırmaqla yanaşı, təhsil müəssisələrinin institusional rolunu gücləndirir. Digər mühüm nəticə isə saxta diplomlarla mübarizənin daha effektiv mərhələyə keçməsidir. Elektron sənədin mərkəzləşdirilmiş reyestrdə yaradılması, onlayn yoxlanması saxta diplom dövriyyəsini minimuma endirir və arxa tarixlə sənəd tərtibini mümkünsüz edir. İşəgötürən və dövlət qurumları üçün ani yoxlama imkanı yaranır. Əlbəttə, ilk dövrlərdə bu prosesdə müəyyən çatışmazlıqlar, risklər ola bilər, lakin ümid edirəm ki, Təhsil Nazirliyi tam rəqəmsal sənədlərə keçidlə bağlı bütün təhsil müəssisələrinin hazırlığını gücləndirəcək".

Onun sözlərinə görə, XİN-lə birgə rəqəmsal diplomların xaricdə tanınması üçün Apostil mexanizmləri hazırlanacaq. Bu model yalnız texnoloji dəyişiklik deyil, təhsil sənədlərinə yanaşmanın köklü şəkildə dəyişməsini göstərir və ölkədə təhsil sənədlərinin verilməsində şəffaflığı artırmaqla yanaşı, rəqəmsal idarəetmənin institusional əsaslarını möhkəmləndirir. Məzunlar artıq aylarla diplom gözləməyəcək, sənədlər təhlükəsiz, operativ və hüquqi qüvvəyə malik elektron formatda təqdim olunacaq.

Beləliklə, Azərbaycanda təhsil sənədlərinin elektron formata keçirilməsi tələbələr və məzunlar üçün mühüm üstünlüklər vəd edir, eyni zamanda, ölkədə təhsilə etimadı gücləndirir və vətəndaşların rahatlığını ön plana çıxarır. Bu yenilik həmçinin işəgötürənlərin və dövlət qurumlarının sənədləri sürətli və dəqiq yoxlamasına şərait yaradacaq, saxta diplomların dövriyyəsi əhəmiyyətli dərəcədə azalacaq və təhsil sistemində rəqəmsal idarəetmənin institusional əsasları möhkəmlənəcək.

**Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*